

# Mənim müharibəm

## Gördüklərim, düşündüklərim və ağrılarım (may, 1993, aprel, 1999)


***Nemət VEYSƏLLİ,***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, redaktor***


**(əvvəli ötən saylarımızda)**

Bir az da qabağa getdik. Kəndarası yollara uşaq arabaları, oyuncaqları səpələnmişdi. Soyuducular, məişət avadanlıqları yolun hər iki tərəfinə, su arxlarının içinə düşmüşdü. Tamam yararsız hala düşənləri də vardı, sınıq-salxağı da, təzəsi də. Bəzi əşyalar tamamilə yanmışdı, külə dönmüşdü.

Kəndin içinə, sağ-sola, yandırılmış həyət evlərinə, talvarlara baxa-baxa addımladığımız bir vaxtda zabit dostum qəflətən dayandı. Donub yerimdə qaldım. "Kaş bircə minaya düşməyək" - deyə düşündüm. O, bayaq yolun ortasından götürüb çantasına qoyduğu bağ qayçısını nümayişyana əlinə aldı.

- Yox, - dedi. - Bu qayçı mənə lazım deyil. Yiyəsinə qismət olmayan qayçını neyləyirəm, - dedi və zavod yağı içində olan bağ qayçısını təzədən atdı yolun ortasına.

- Belə yaxşıdı, - dedi. - Onu işlədə bilmərəm.

***

...Bir dəfə də Bakıda, "Azərbaycan ordusu" qəzetində, redaksiyada əyləşməkdən daha çox, tez-tez döyüş bölgələrində ezamiyyətdə olan, qələm dostum Vahid Məhərrəmovla Horadizdən Əhmədbəyliyə gəlirdik. Horadiz, Əhmədbəyli yolunda, Şam Mahmudluya çatmamış alma bağı var. Asfalt yoldan, maşının şüşələri arxasından alma ağaclarına baxırdın - günəş şüası yetişmiş, qızarmış almaların üstünə düşürdü - almaların qızarmış üzündən xırda-xırda ay və günəş parçaları doğurdu. İri gövdəli alma ağaclarının dibində, münbit torpaqda yamyaşıl, təzəcə pöhrələnmiş alma şitilləri bitmişdi.

Vahid bu alma pöhrələrinə müştəri gözü ilə baxdı.

- Nemət müəllim, Badamdarda torpaq sahəsi almışam. Bəlkə bu pöhrə almalardan bir neçəsini çıxarım, aparım əkim.

Bu söhbətdən beş-on dəqiqə qabaq yaralı və şəhid olmuş əsgərləri, yanmış, külə dönmüş həyətləri görmüşdük və bunların təsiri hələ də canımızdan çıxmamışdı.

- Yox, Vahid, lazım deyil, - dedim. - Şitili ayrı yerdən alarsan.

Vahid heç nə demədi, susdu.

***

...Bir dəfə də könüllülərdən ibarət təchizat taborunun komandirinin müavini Vaqif Xanlarovla Füzuli rayonunun Kovşad kəndinə getmişdik. Ətrafda - Qacar kəndi tərəfdə əməlli-başlı döyüşlər gedirdi. Bizim mülahizəmizə görə bu gün Kovşadda döyüşlər getmirdi. Amma kəndə çatar-çatmaz hər tərəfdən üstümüzə güllə yağışı yağdı. Vaqif məqam tapıb idarə etdiyi "jiquli"ni tikanlı çəpərin arxasına verdi. O, həyəcan içində:

- Buradan necə çıxacağıq, ya Allah, sən özün kömək elə.

Güllələrin haradan atıldığını, təqribən də olsa, müəyyənləşdirdik: Güllələr Hoğa kəndi tərəfdən atılırdı. İri çaplı silahlardan atılan güllələr ağacların yarpaqlarını, qolbudağını qırıb yerə tökürdü. Tərtəmiz, təhlükədənmi, qorxudanmı, sahibi harasa yoxa çıxmış həyətdə təqribən iyirmi-otuz baş yaxşı baxılmış qoyun vardı. İki daşın arasında qoyunlara diqqətlə baxdım. Elə bil onları bir-bir sürülərin içindən seçmişdin, sanki onları ayrıca bəsləmişdin. Bədənlərindəki yunları tərtəmiz, ağappaq, gövdəli və ətli-canlı, iri quyruqlu. Lap yaxınlardan atılan avtomat və pulemyot səsi, küll halında onlarla bizim aramıza qoyunların cəmləşdiyi həyətə düşürdü, vəziyyətimiz bir az da qorxulu olurdu, biz deyəsən qan çanağına düşmüşdük. Zavallı heyvanlar isə həyətin o başına, bu başına qaçırdılar, ley vurmuş quş kimi özlərini tikanlı, məftilli çəpərə, dəmir darvazaya çırpırdılar. Qaçanda da ətli və iri quyruqları şappıldayırdı.

Ay Allah, bu seçmə, bir-birindən yaraşıqlı, düşdükləri vəziyyətdən qurtulmaq üçün özlərini daşa, divara çırpan qoyunlar kimindi, görəsən onların sahibi haradadı?

Arada bir pauza yaranırdı. Vaqif də bundan istifadə etdi. Kəndə bitişik iri təpələrdə mövqe tutan əsgərlərin köməkliyi sayəsində oradan uzaqlaşdıq.

Amma, o zavallı qoyunların aqibəti necə oldu, bilmədim.

***

Cəbhə bölgələrində gördüyüm, müşahidə etdiyim, sonralar isə ağrıya çevrilmiş bu epizodları nə üçün belə inadkarcasına söyləyirəm? Demək istədiyim odur ki, ermənilərin bizim xalqımıza qarşı başladıqları uzun müddətli müharibə təkcə top, tüfəng məsələsi deyil. Ermənilər bizim torpağımızı, qapılarımızdakı ağacları, malqoyunumuzu da yaralayıblar. Ümumiyyətlə, onlar bizi bir millət, dövlət və xalq kimi məhv edib, torpaqlarımıza sahib olmaq istəyirlər və özü də onlar bu niyyətlərini gizlətmirlər.

Xəyallara dalmaq, olmayan şeyləri danışmaqdan da uzağam. 1993-1999-cu illərdə, bölgə müxbiri kimi fəaliyyət göstərdiyim müddətdə bir neçə erməni hərbçi əsiri ilə söhbət etmişəm. Erməni hərbi əsirləri ilə saatlarla apardığım söhbət zamanı onlardan təkrar-təkrar soruşurdum:

"Bizə, azərbaycanlılara, Azərbaycan vətəndaşlarına qarşı belə qəddar, ağlasığmaz rəftar sizdə haradan qaynaqlanır, bunun səbəbi nədir?"

Bəziləri birbaşa, bəziləri isə dolayısı ilə bildirdilər ki, bizim uzaq illərə hesablanmış məqsədimiz, proqramımız budur: sizi bir millət, xalq kimi fiziki cəhətdən məhv etmək, torpaqlarınızı isə "Böyük Ermənistan"a qatmaqdı. Bu qeyri-insani ideyanın, planın mümkünsüz olduğunu onlara söyləyəndə çiyinlərini çəkirdilər. "Bizə belə tapşırıq veriblər", - deyirdilər.

Ermənilərin Azərbaycana, Azərbaycan vətəndaşlarına qarşı törətdikləri ağlasığmaz cinayətlər, işgəncə və vandal faşist Almaniyasının yəhudilərə qarşı törətdiklərindən də qat-qat dərin və artıqdır. Ermənilərin Azərbaycana qarşı Qaradağlıda, Xocalıda, Göyçədə törətdikləri cinayətlər faşistlərin Xatın kəndində, Babu-Yarda törətdiklərindən amansız və geniş miqyaslıdı.

Hər bir azərbaycanlı, Azərbaycan vətəndaşı təsəvvürünə gətirəndə ki, ermənilər XIX əsrin əvvəllərindən, dünyanın uzaq məmləkətlərindən qədim torpaqlarımıza nə qədər bəlalar gətirib, müxtəlif formalarla torpaqlarımızı ələ keçiriblər - az qalır adamın başına hava gəlsin.

***

Müxtəlif məqamlarda əsgər və zabitlərimizin, ermənilərin (hava telefonu ilə) dilindən eşitdiklərim:

Bir zabitin yerli əhali haqda dedikləri:

"Bunların burada torpaqları yoxdur, ha. Həmişə mala, hinduşkaya baxıblar. Hay düşən kimi də qabaqlarına qatıb çıxıb gediblər. 20.10.1995, Ergi".

Erməni zabitinin hava telefonu ilə dedikləri:

"Ara, siz necə millətsiniz, gəlib durmuşuq Beyləqanın başının üstündə, televizorda elə hey deyirsiniz ki, bir qarış torpağımızı da verməyəcəyik. 1993, Füzuli".

Sıravi əsgərin dediklərindən:

"Ağdərəni alan könüllüləri buraxdılar, indi gedib evlərindən könülsüzləri gətirdilər ki, döyüşün. 1993, Haramı".

"Ay işığında yazılan əsgər məktubu beş aydan sonra ünvanına çatıb. 2.08.93".

Heydər Piriyevin dediklərindən:

"Niyə məni başa düşmürlər? Hər şeyi atıb, Nikolayevdən bura gəlmişəm, indi də hər gün məni istintaqa çəkirlər. Orduda on yeddi, on səkkiz ildi qulluq edirəm, hələ bir dəfə də olsun izahat yazmamışam, indi hər gün izahat verirəm. Qoy yerimi dəyişdirsinlər, tutsunlar. Amma torpaqlarımız geri qayıtsın. Füzuli gedəndən sonra Əhmədbəylidə, arxın üstündə dayanıb ağlamışam. Mənim üzümdən atam xəstələnib. Məni evin kandarında görən kimi deyir: "Burada nə gəzirsən? 1.11.1993, Haramı".

İntiqam Məmmədov, komandirin silahsursat üzrə müavini:

"Nə hökumətə, nə orduya, nə də jurnalistlərə inanmıram. Avqust, 1993, Füzuli".

Fəzail Ağayevin dediklərindən:

"Gərək adi şeylərdən sevinəsən. Adi şeylərdən, məsələn, arıq inəyin yaza çıxmağından, pomidorun çiçək açmağından. 26.07.1994. Daşburun".

Heydər Piriyevdən tələsik götürülmüş müsahibə:

- Təəssüf ki, millətimizi ağlara və qaralar qrafasına bölüblər. Döyüş bölgəsində olan şəxsi heyətin sosial tərkibinə baxırsan - görürsən ki, əksəriyyəti kəndlinin, fəhlənin, çobanın - bir sözlə, kasıb-kusubun övladıdı. Nə üçün varlı, vəzifəli adamların uşaqları burada yoxdur? Vətən elə bizim üçündür? Ümumiyyətlə, zabit heyətinin az bir hissəsi cəbhədədir. Bunların da hamısını əsgərlər görür.

- Bəs orduda hərbi vətənpərvərlik, təbliğat işi nə yerdədir?

- Təəssüf ki, yox dərəcəsindədir. Ümumiyyətlə, əsgərlərin qələbəyə inamı yoxdur. İndiki əsgərlərin əksəriyyəti ailəlidir, onların ailəsinə qayğı yoxdur, üstəlik də yaxşı müalicə olunmurlar. Girov və yaralılarla bağlı dövlət səviyyəsində iş getmir.

Bizim əsgərlər elə bil başqa dövlətin vətəndaşlarıdı. Arxa cəbhədə olanlara məzuniyyət, rütbə verirlər, bizə yox. Niyə?

Telekanalların, qəzetlərin çoxu, dezinformasiya ilə məşğuldu. Bunlar da əsgərlərə pis təsir eləyir. Fərarilərə qarşı qəti tədbirlər görülmür. Mövqelərini özbaşına tərk edib gedənlərə uzağı üç-beş günlük cəza verirlər. Bəs sonra? Belə cəza forması özünü doğrultmur.

İyirmi yaşdan qırx yaşa kimi vətəndaşlar orduya çağırılmalıdır, onları necə gəldi yox, xəlbirdən keçirəndən sonra cəbhəyə göndərilməlidir. Əslində, hələ ordu yaranmayıb. Kimdir bizim düşmənimiz? Niyə polk, niyə briqada? Bu sualların cavabları tapılmalıdı, təhlil olunmalıdı. Dövlətin ordu haqda strategiyası məlum olmalıdı. Milli Məclis, Elmi-Tədqiqat İnstitutları, hamı ordu haqda, onun problemləri, populyarlığı haqda düşünməlidi, hamı ordu üçün işləməlidi. Respublikanın elmi potensialının ifadəsini biz orduda, ordu birləşmələrində görmürük. Deyirsiniz ki, canlı qüvvə sarıdan Füzuli bölgəsinə kifayət qədər kömək edilir. Düzdü, bu belədir. Dünən, srağagün bu bölgəyə 500-600 nəfər çağırışçı gəlmişdi. Onlar gəldikləri kimi də çıxıb getdilər. Hərbi kadrların çatışmadığı bir vaxtda zabitlərə ögey münasibət bəsləyirlər. Zabitlərin çoxu qaçıb, qaçmayanları, döyüşənləri də həbs edib salıblar Bayıl türməsinə.

- Söylədiklərinlə bağlı sizə belə bir sual vermək istəyirəm: Zabitlərin nüfuzunu, ləyaqət hissini qaldırmaq üçün hansı tədbirlər görülməlidir?

- Bütün gücü ilə təbliğat maşınını işə salmaq lazımdı. Qoy telejurnalistlər, operatorlar hərəkətə gəlsinlər. Qoy gəlib bizə, döyüşən orduya dayaq olsunlar, qeyrətə gəlsinlər. Zabitlər necə yaşayır, cəmiyyətdə onun ailəsinə münasibət necədir? İki min beş yüzə qədər fərari zabit var. Zabit də fərari olarmı? "Fərari zabit" ifadəsi alçaldıcıdır. Hərbi maşınlar Bakıdan gələn kimi, Horadiz dəmiryol stansiyasına çatmamış, döyüşə girməmiş xarab olurlar. 5.08.1993-cü il, Füzuli".

Mətanət Abbasova, tibb xidməti rəisi:

"Düşmənə qarşı qəzəbimiz artmaq əvəzinə, əksinə, daha da yazıqlaşırıq. Ağdam, Qaradağlı kəndi, hərbi hospital, 6.07.1993".

Adı, soyadı məlum olmayan əsgərin dedikləri:

"Əsgər mövqelərini qoyub qaçanda cəzalandırırlar, amma neçə gündür prezident qaçıb - onu cəzalandıran yoxdur. İyun, 1993".

Əsgər postu, dirəyə yazılmış cümlə: "Yatmaq da istəyirəm, amma Vətən də yazıqdır".

Vaqif Cəfərov, Şuşa rayon İcra Hakimiyyətinin başçısı:

"Qarabağ həmişə unudulub, onu yada salanda da ancaq qisas üçün yada salıblar. Kərkicahan, qış ayı, 1992".

***

1993-1994-cü illərdə, Qarabağ müharibəsinin qızğın çağında, piyada qoşunlarla yanaşı, bizim artilleriyamızın, topçularımızın igidliyi, peşəkarlığı xüsusi qeyd edilməlidir. Sabiq SSRİ-nin ali hərbi məktəblərində dərs keçən, sovet ordu sıralarında qulluq edən artilleriyalarımızla yanaşı, Bakı Politexnik İnstitutunun hərbi kafedrasının məzunları da xoş sözə, diqqətə layiqdilər.

O gün indiki kimi yadımdadır. Milli mənsubiyyətinə görə ukraynalı olan, amma Milli ordu, Azərbaycan hərbi dairələrində hörmət qazanmış polkovnikin komandir olduğu artilleriya birləşmələri Haramı düzündə, Ağdam istiqamətindən Martuni qəsəbə mərkəzini güclü top, "Qrad" atəşinə tutmuşdular. Çox-çox qabaqlarda olan, topçuların kəşfiyyat qrupları, "korrektirovşiklər" ardıcıl top, "qrad" zərbələrindən sonra Martuni qəsəbə mərkəzində - Mərkəzi xəstəxanada, avtovağzal, elektrik stansiyası, bazara gedən küçələrdə nələr baş verdiyini, dağıntıların miqyasını xəbər verirdilər.

Heç kəsin gözləmədiyi məqamda, artilleriyaçıların qərargahında təmiz rus dilində danışan erməni tibb işçisinin həyəcanlı səsi eşidildi:

- Siz necə qəddar, vəhşi adamlarsınız. İmkan verin ailələrimizi, yaralılarımızı yığışdıraq. Sizdə humanizm hissi, insaf yoxdur?

Hava telefonunda pauza yaranan kimi polkovnik mikrofona yaxınlaşdı. Halını pozmadan, hərbiçilərə xas soyuqqanlılıqla:

- Bu haqda gərək qabaqlar, Qarabağ döyüşləri başlamazdan çox-çox qabaq düşünəydiniz, - dedi.

O, bu sözləri dedi və heç nə olmamış kimi başladı növbəti əmrlərini verməyə.


**(ardı var)**